AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİNİN QƏRARI |
| Qəbul edildiyi tarix | 21.08.2020 |
| Qeydiyyat nömrəsi | KQ-4/20 |
| Adı | Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin 2016-cı il 6 fevral tarixli 0001 nömrəli Qərarı ilə təsdiq edilmiş “Poçt rabitəsi xidmətlərinin göstərilməsi Qaydaları”nda dəyişiklik edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 04.09.2020 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 180.120.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15202008210420 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 03.09.2020 |

“Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin strukturu”nda və “Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 910 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 9 yanvar tarixli 4s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə”nin 5.11.1-ci və 5.11.4-cü yarımbəndlərini rəhbər tutaraq, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Kollegiyası

**ərara alır:**

1. Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin 2016-cı il 6 fevral tarixli 0001 nömrəli Qərarı ilə təsdiq edilmiş “Poçt rabitəsi xidmətlərinin göstərilməsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 9.14-cü və 9.32-ci bəndlərdə “səhiyyə və sağlamlıq müəssisələrinə” sözləri “tibb müəssisələrinə” sözləri ilə əvəz edilsin;

1.2. 9.55-ci bənddə “müalicə-sağlamlıq müəssisələrində” sözləri “tibb müəssisələrində” sözləri ilə əvəz edilsin.

2. Hüquq şöbəsinə tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsini təmin etsin.

3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Nazir** **Ramin Quluzadə**